# 2017-ci il, birinci rüb: İnkişafımızın yeni mərhələsi

## *Sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr müzakirə olunmuşdur.*

Aprelin 18-də Qəbələ Rayon İcra Hakimiyyətində 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair şura iclası keçirilmişdir.

Tədbirdə şura üzvləri, icra nümayəndələri, bələdiyyə sədrləri, idarə, müəssisə, təşkilat və təhsil müəssisələrinin rəhbərləri, sahibkarlar iştirak etmişlər.

İclasda rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin hesabat məruzəsi dinlənilmişdir. O, məruzəsində aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyilə Nazirlər Kabinetinin cari ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısının qarşıya qoyduğu mühüm vəzifələrdən danışmış, ölkədə iqtisadi islahatların sürətlə aparılması, ixrac potensialının gücləndirilməsi, yerli istehsalın artırılması kimi istiqamətlər üzrə tövsiyələrini, həmçinin investisiyaların cəlb edilməsi prosesində mühüm addımların atılması barədə fikirlərini diqqətə çatdırmışdır.

Səbuhi Abdullayev məruzəsində bu ilin ilk üç ayı ərzində ölkədə geniş vüsət alan sosial-iqtisadi inkişafın, aparılan abadlıq-quruculuq işlərinin Qəbələdə də yüksək templə davam etməsindən, rayonun sosial-iqtisadi və mədəni-ictimai həyatında əldə olunan uğurlu nəticələrdən, həyata keçirilən infrastruktur layihələrindən söhbət açmışdır. RİH başçı hesabat dövründə sosial problemlərin həllinə dair konkret tədbirlərin görüldüyünü, təhsil, səhiyyə və digər sosial müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlərin davam etdirildiyini diqqətə çatdırmışdır. ***(Məruzə qəzetin bu nömrəsində çap edilib).***



Hesabat məruzəsi ətrafında rayon suvarma sistemləri idarəsinin rəisi Qüdrət Həmidov çıxış edərək kənd təsərrüfatı rayonu olan Qəbələdə aqrar sektorun inkişafının bilavasitə onun rəhbərlik etdiyi sahə ilə sıx bağlı olduğunu bildirərək bununla əlaqədar 2017-ci ilin birinci rübündə suvarma işlərini daha da yaxşılaşdırmaq üçün həyata keçirilən tədbirlər barədə danışmışdır.



Rayon kənd təsərrüfatı idarəsinin sektor müdiri Şamil Osmanov çıxışında iqtisadiyyatımızın əsasını təşkil edən, əhalinin məşğulluğunun və ərzaq bodduğunun təmin edilməsi sahəsində mühüm yer tutan kənd təsərrüfatının inkişafı ilə bağlı müsbət göstəricilər əldə olunduğunu bildirmişdir. O, rayonda aqrar sektorun mərhələli və planlı şəkildə inkişaf etdirilməsi istiqamətində 2017-ci ilin birinci rübü ərzində xeyli iş görüldüyünü qeyd etmişdir. Yaşayış məntəqələrində yeni fındıq bağlarının salındığını, tütünçülüyün genişləndirilməsi üçün müvafiq hazırlıq işlərinin aparıldığını, eləcə də əkinçiliyin, bağçılığın, üzümçülüyün və heyvandarlığın daha da inkişaf etdirilməsi sahəsində həyata keçirilən tədbirləri yığıncaq iştirakçılarının diqqətinə çatdırmışdır. Baramaçılığın gəlirli sahə olduğunu vurğulayan sektor müdiri son il də rayonda 150 minə yaxın tut tinglərinin əkildiyini qeyd etmişdir.

Gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov 2017-cı ilin ötən dövrü ərzində həyata keçirilən Yeniyetmələrin XI Respublika Oyunlarının proqramına daxil olan sərbəst-güləş, boks və cüdo üzrə zona yarışlarının rayon seçim mərhələsindən, yeniyetmələr arasında keçirilən qol güləşi, stolüstü tennis, kişilər arasında şahmat üzrə rayon birinciliyi, taekvondo idman növü üzrə Qəbələ Açıq Turnirindən və digər tədbirlərdən danışmışdır. O, ölkəmizdə gələn ay keçirilməsi nəzərdə tutulan IV İslam Həmrəyliyi Oyunları ilə əlaqədar aprelin 27-də rayonumuzda keçiriləcək “Xəzərdən başlayan su səyahəti” Festivalına ciddi hazırlıq işlərinin getdiyini bildirmişdir.

İclası Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdıraraq, qarşıda duran vəzifələr barədə müvafiq tapşırıqlar vermişdir.

Yekunda iclasın qərar layihəsi oxunmuşdur.

✍ **Varis YAQUBOV,**
**İlkin VƏLİZADƏ.**
**“Qəbələ”.**

# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat

# MƏRUZƏSİ

**Hörmətli yığıncaq iştirakçıları!**

Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir.

Cənab İlham Əliyev bu ilin birinci rübündə ölkəmizdə iqtisadi inkişafın təmin olunduğunu, sosial məsələlərin həllini tapdığını, ordu quruculuğunun uğurla getdiyini bildirərək 2017-ci ilin bizim üçün uğurlu il olacağını qeyd etmişdir. Dövlətimizin başçısı beynəlxalq vəziyyətin gərgin olduğunu, münaqişələrin davam etdiyini, yeni risklərin yarandığını təəssüflə bildirərək, ölkəmizin təhlükəsizliyini təmin etmək məqsədilə tədbirlər görüldüyünü söyləmişdir.

Bu ilin ilk 3 ayı ərzində xarici ölkələrə 7 dəfə səfər etdiyini vurğulayan və beynəlxalq tədbirlərdəki iştirakından danışan ölkə başçısı bu səfərlərin böyük əhəmiyyət daşıdığını, Azərbaycanın beynəlxalq imicinin möhkəmləndirilməsi, ikitərəfli əlaqələrin inkişafı baxımından önəmli olduğunu qeyd etmişdir. 2017-ci ilin ilk 3 ayında Azərbaycana 7 dövlət başçısının səfər etdiyini xatırladan cənab İlham Əliyev bunu ölkəmizə olan hörmətin göstəricisi kimi qiymətləndirmişdir. Cənab Prezident bildirmişdir ki, bu ilin birinci rübündə Bakıda keçirilən və 40-dan çox fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısının iştirak etdiyi V Qlobal Forum, ABŞ və Rusiya silahlı qüvvələrinin qərargah rəislərinin görüşü Azərbaycanın dünyadakı rolunu, dünya miqyasında etibarlı tərəfdaş olduğunu göstərir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin cari ilin birinci rübündə də diqqət mərkəzində olduğunu, Ermənistanın danışıqları dayandırmağa çalışdığını, amma buna nail ola bilməyəcəyini deyən Prezident cənab İlham Əliyev bildirmişdir ki, Minsk qrupunun həmsədr ölkələri bir neçə dəfə status-kvonun qəbuledilməz olduğunu bəyan etmişlər. Dövlətimizin başçısı vurğulamışdır ki, ATƏT-in Minsk qrupu Ermənistana təzyiqi daha da gücləndirməli, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi qətnamələr qeyd-şərtsiz icra olunmalı və işğalçı qüvvələr işğal olunmuş ərazilərdən çıxarılmalıdır.

Azərbaycanın siyasi-iqtisadi və hərbi sahədə gündən-günə gücləndiyini və gectez bu məsələnin ədalətli həll olunacağına əminliyini bildirən cənab Prezident Dağlıq Qarabağda qondarma “referendum” keçirməklə Ermənistanın bir daha özünü biabır etdiyini vurğulamışdır.

Avropa İttifaqının, qonşu dövlətlərin, Minsk qrupuna həmsədr olan və bir çox digər ölkələrin bu “referendum”u pislədiklərini və tanımadıqlarını qeyd edən ölkə başçısı, bütün beynəlxalq aləmin “referendum”u qəbul etməməklə Azərbaycanın ərazi bütövlüyünə öz dəstəyini göstərmiş olduğunu demişdir. Cənab İlham Əliyev həmçinin Dağlıq Qarabağa qanunsuz səfər etmiş, xaricdə saxlanılan əcnəbi vətəndaşın bütün dünyanın gözü qarşısında Azərbaycana təhvil verildiyini də diqqətə çatdırmışdır.

İşğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpasını tarixi hadisə adlandıran dövlətimizin başçısı bu gün orada yeni qəsəbənin salındığını, ilkin mərhələdə 50 evin tikildiyini, yeni yol çəkildiyini, məscidin inşa olunduğunu, sonrakı mərhələdə daha 150 evin tikintisinin nəzərdə tutulduğunu qeyd etmişdir.

Cənab İlham Əliyev məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışaraq, bu il də köçkünlər üçün yeni-yeni qəsəbələr salındığını, onlardan birinin yaxın aylarda Tərtərdə istifadəyə veriləcəyini diqqətə çatdırmışdır.

İqtisadiyyatımızın əsas göstəricilərinə nəzər salan cənab Prezident ilin ilk 3 ayı ərzində qeyri-neft sektorunun 2,4 faiz artdığını, qeyri-neft sənayesində artımın 2 faiz səviyyəsində olduğunu, kənd təsərrüfatının 3,5 faiz, həmçinin bitkiçiliyin 20 faizdən çox artdığını bildirmişdir.

Birinci rübdə valyuta ehtiyatlarımızın 1 milyard dollar səviyyəsində artdığını və bu gün 38,5 milyard dollar təşkil etdiyini deyən dövlətimizin başçısı bunu önəmli məsələ adlandırmış, bu ilin 3 ayı ərzində ticarət dövriyyəsinin 15 faiz, ixracın təxminən 50 faiz, qeyri-neft ixracımızın təxminən 10 faiz artdığını, idxalın isə 17 faiz azaldığını qeyd etmişdir.

Bu göstəricilərin iqtisadi inkişafımızı aydın əks etdirdiyini, gələcəkdə də iqtisadi potensialımızı gücləndirəcəyimizi deyən cənab İlham Əliyev birinci rübdə 85 min yeni iş yerinin açıldığını da diqqətə çatdırmışdır. Yeni iş yerlərinin yaradılmasının təkcə dövlət sektorunda deyil, özəl sektorda da davam etdiyini, özəl sektorda 40 mindən çox yeni iş yerinin yaradıldığını deyən dövlətimizin başçısı bunu iqtisadi inkişafın təzahürü adlandırmışdır.

Dövlət başçısı bu ilin birinci rübündə turistlərin ölkəmizə səfərində 25 faiz artım olduğunu qeyd edərək, bunu Azərbaycanda mövcud olan sabitlik, yaradılan müasir infrastruktur, mövcud 6 hava limanının, gözəl yolların, otellərin, müalicəvi turizmin inkişafı ilə əlaqələndirmişdir. Cənab Prezident 3 ay ərzində “ASAN viza” xətti ilə səksəndən çox ölkənin vətəndaşlarına 40 min elektron vizalar verildiyini bildirmişdir. Bu gün Bakının dünyanın ən gözəl şəhərlərindən biri olduğunu qeyd edən cənab İlham Əliyev gələn ay ölkəmizdə IV İslam Həmrəyliyi Oyunlarının keçiriləcəyini söyləmiş və bunun böyük idman bayramı olacağını vurğulamışdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

2017-ci ilin I rübü Qəbələ rayonu üçün də uğurlu olmuşdur. İqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 33.152 min manatlıq məhsul istehsal edilmiş, ötən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı 3.684 min manat, yaxud 12,5 % artmışdır. Keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 2.840 min manat, yaxud 49,8 %, kənd təsərrüfatında 304 min manat, yaxud 3 %, nəqliyyatda 40 min manat, yaxud 3,9 %, ticarətdə 733 min manat, yaxud 9,8 %, rabitədə 13 min manat, yaxud 5,3 % artmış, tikintidə 246 min manat, yaxud 4,8 % azalmışdır.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 317 manat təşkil etmişdir.

**(Ardı 3-cü səhifədə).**